**İş № 1-1(103)-03/ 2008**

Bakı Apellyasiya Məhkəməsinin məhkəmə baxışına dair yekun

# Q Ə R A R I

04 mart 2008-ci il                                        Bakı şəhəri

Bakı Apellyasiya Məhkəməsinin hərbi məhkəmələrin işləri üzrə məhkəmə kollegiyası aşağıdakı tərkibdə :

Sədrlik edən - Seyfəliyev Əli Səlim oğlu,

Hakimlər - Mirzəyev Sahibxan Arzuman oğlu və Nəbiyev Etibar Qəzənfər oğlu ( məruzəçi ),

Novruzova Maral Zaman qızının katibliyi ilə,

Dövlət ittihamçısı - Azərbaycan Respublikası Baş Prokurorluğunun dövlət ittihammın müdafıəsi üzrə idarənin prokuroru, ədliyyə müşaviri İsmayılov Rahil Əliş oğlu,

Müdafiəçi – Bakı şəhəri 1 saylı hüquq məsləhətxanasının vəkili Talıbov Əfsər Kərim oğlu,

Məhkum – Seyidməmmədov Rövşən Rafiq oğlunun iştirakı ilə,

Seyidməmmədov Rövşən Rafiq oğlunun Azərbaycan Respublikası CM-nin 334.1-ci maddəsi ilə məhkum edilməsinə dair Bakı hərbi məhkəməsinin 24 yanvar 2008-ci il tarixli hökmündən məhkumun müdafiəçisi tərəfindən verilmiş apellyasiya şikayətinə açıq məhkəmə iclasında baxaraq,

## M Ü Ə Y Y Ə N  E T D İ :

Bakı hərbi məhkəməsinin 24 yanvar 2008-ci il tarixli hökmü ilə (sədrlik edən M.Q.Əliyev)

Seyidməmmədov Rövşən Rafiq oğlu, 22 sentyabr 1985-ci il tarixdə Mingəçevir şəhərində anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, orta təhsilli, subay, əvvəllər məhkum olmamış, kursant kimi xidmət keçmiş, Mingəçevir şəhəri, 20 yanvar küçəsi, ev 2, mənzil 35-də qeydiyyatda olmuş, 11 dekabr 2007-ci il tarixdən qətimkan tədbiri kimi həbsdə saxlanılan,

Azərbaycan Respublikası CM-nin 334.1-ci maddəsi ilə təqsirli bilinib, 3 (üç) il müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir.

Məhkəmənin hökmünə əsasən Seyidməmmədov Rövşən Rafiq oğlu kursant kimi kiçik çavuş rütbəsində xidmət keçərkən 10 sentyabr 2007-ci il tarixdə saat 20-00 radələrində xidmət yerini özbaşına tərk etmiş və yalnız 11 dekabr 2007ci il tarixdə saat 10-00 radələrində könüllü olaraq Bakı hərbi prokurorluğuna gələrək özünü təqdim etmişdir.

Məhkəmənin hökmündən məhkumun müdafiəçisi, Bakı şəhəri 1 saylı hüquq məsləhətxanasının vəkili Talıbov Əfsər Kərim oğlu apellyasiya şikayəti verərək Bakı hərbi məhkəməsinin 24 yanvar 2008-ci il tarixli hökmünü dəyişdirməklə, Azərbaycan Respublikası CM-nin 70-ci maddəsinə əsasən R.R.Seyidməmmədova təyin olunmuş cəzanın şərti olaraq tətbiq edilməsi haqqında qərar çıxarılmasını xahiş etmişdir.

Məhkumun müdafiəçisi apellyasiya şikayətini onunla əsaslandırılmışdır ki, R.R.Seyidməmmədov ilk dəfə olaraq az ağır cinayət törətmişdir, könüllü gəlib təqsirini boynuna almış və törətdiyi əməllərindən səmimi peşmançılıq çəkir, onun ailə vəziyyəti ağır olmaqla, anası ağır xəstəliklərdən əziyyət çəkir, atası pensiyaçıdır.

Məhkəmə kollegiyası, apellyasiya şikayətini müdafiə edib təmin olunmasını xahiş edən müdafiəçinin və məhkumun çıxışlarını, şikayəti təmin edilmədən və hökmü dəyişdirilmədən saxlanılması barədə dövlət ittihamçısının çıxışını dinləyib, şikayətin dəlilləri əsasında iş materiallarını araşdıraraq hesab edir ki, aşağıdakı əsaslarla apellyasiya şikayəti qismən təmin olunmalı və cəzanın öz sərtliyinə görə cinayətin ağırlığına və məhkumun şəxsiyyətinə uyğun olmadığı üçün birinci instansiya məhkəməsinin hökmü dəyişdirilərək təyin edilmiş cəza yüngülləşdirilməlidir.

Belə ki, Seyidməmmədov Rövşən Rafiq oğlunun təqsirli bilindiyi cinayətin törətməsi onun özünü tam təqsirli bilməsindən əlavə, həmin iş üzrə məhkəmədə dindirilmiş şahidlər ifadələri, rəisin 11 sentyabr 2007-ci il tarixli 256 saylı əmri, 11 dekabr 2007-ci il tarixli protokol və məhkəmə istintaqında tədqiq edilmiş digər sənədlərlə kifayət qədər sübuta yetirilmişdir. Birinci instansiya məhkəməsi əsaslı və qanuni olaraq R.R.Seyidməmmədovun əməllərini Azərbaycan Respublikası CM-nin 334.1-ci maddəsi ilə tövsif etmiş və apellyasiya şikayətlərindən görünür ki, məhkumun əməllərinin sübuta yetirilməsi və hüquqi tövsifi mübahisə edilmir.

Məhkəmənin hökmündən görünür ki, məhkəmə R.R.Seyidməmmədova cəza təyin edərkən, onun törətmiş olduğu cinayətin xarakterini, ictimai təhlükəlilik dərəcəsini, təqsirkarın şəxsiyyətini, o cümlədən cəzanı yüngülləşdirən halları nəzərə almış və ona Azərbaycan Respublikası 334.1-ci maddəsinin sanksiyasında nəzərdə tutulmuş 3 il müddətə azadlıqdan məhrum etmə cəzasını təyin etmişdir.

İşin materiallarından görünür ki, R.R.Seyidməmmədov ilk dəfə olaraq az ağır cinayət törətmiş, törətdiyi cinayəti etiraf edərək səmimi peşmançılıq bildirmiş, könüllü gəlib təqsirini boynuna almışdır, atası keçmiş hərbi qulluqçu kimi pensiyaçıdır, anası ağır xəstəliklərdən əziyyət çəkir.

Qeyd olunanlara əsaslanaraq məhkəmə kollegiyası belə nəticəyə gəlir ki, birinci instansiya məhkəməsi tərəfindən R.R.Seyidməmmədova təyin olunmuş cəza öz sərtliyinə görə cinayətin ağırlığına və məhkumun şəxsiyyətinə uyğun olmadığı üçün hökm dəyişdirilməli və azadlıqdan məhrum etmə növündə cəzanın müddətini azaldaraq yüngülləşdirilməsini məhkəmə kollegiyası qanuni, əsaslı və ədalətli hesab edir.

Yuxarıda şərh olunan cəzasını yüngülləşdirən halları, R.R.Seyidməmmədovun törətdiyi cinayətin xarakterini və ictimai təhlükəlilik dərəcəsini, törədilmiş cinayətin konkret hallarını, məqsədi və motivini, cinayətin törədilməsi zamanı və bundan sonra R.R.Seyidməmmədovun davranışını müstəsna hallar kimi, habelə cinayətin ictimai təhlükəliliyini əhəmiyyətli dərəcədə azaldan halların olduğunu nəzərə alaraq məhkəmə kollegiyası Azərbaycan Respublikası CM-nin 62-ci maddəsini tətbiq etməklə, R.R.Seyidməmmədova törətdiyi cinayətə görə, Azərbaycan Respublikası CM-nin 334.1-ci maddəsində müəyyən edilmiş aşağı həddən də az azadlıqdan məhrum etmə cəza təyin edilməsini lazım bilir.

Göstərilənlərə əsasən və Azərbaycan Respublikası CPM-nin 397.1, 397.2, 398.1.4 və 405.1.1 maddələrini rəhbər tutaraq məhkəmə kollegiyası,

Q Ə R A R A  A L D I :

Məhkumun müdafiəçisinin apellyasiya şikayətləri qismən təmin edilsin.

Seyidməmmədov Rövşən Rafiq oğlunun Azərbaycan Respublikası CM-nin 334.1-ci maddəsi ilə 3 (üç) il müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmasına dair Bakı hərbi məhkəməsinin 24 yanvar 2008-ci il tarixli hökmü dəyişdirilsin.

Azərbaycan Respublikası CM-nin 62-ci maddəsi tətbiq edilməklə Seyidməmmədov Rövşən Rafiq oğluna Azərbaycan Respublikası CM-nin 334.1-ci maddəsi ilə təyin olunmuş azadlıqdan məhrum etmə cəzası 3(üç) ildən, 1 (bir) il 6 (altı) ay müddətə azadlıqdan məhrum etmə cəzasına endirilsin.

Qərar elan olunduğu andan qanuni qüvvəyə minir.

Qərardan Azərbaycan Respublikası Ali Məhkəməsinə kassasiya şikayəti və ya kassasiya protesti verilə bilər.